UOT:327;930.22;327 (4/9)

# TÜRK AZLIQLAR: XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏN GÜNÜMÜZƏDƏK

**P.H.SƏMƏDOV**
***Bakı Dövlət Universiteti***
***perviz1975@yahoo.com***

*Azərbaycanda Respublika rejiminin qurulmasından Azərbaycan dövlət müstəqilliyinin bərpasınadək, Qərbi Azərbaycanlılar, Bolqarıstan türkləri, Kosovo türklərinin qarşılaşdıqları sıxışdırılma siyasətindən bəhs edilir. Sovet Sosialist rejiminin xüsusiyyətləri və rejim dəyişməsinin dinamiklərindən, Qarabağ hadisəsinin Müstəqillikdə oynadığı roldan və müstəqilliyin bərpasına toxunulur.*

**Açar sözlər:** Respublika rejimi, Qərbi azərbaycanlılar, Bolqarıstan türkləri, Kosovo türkləri, Qarabağ, müstəqillik

## Azərbaycanda Respublika rejiminin qurulması

1917-ci ildə Rusiyada Fevral inqilabının baş verməsi ilə yeni, tarixi, siyasi bir dövr başladı. İnqilabın zəfərlə nəticələnməsi Rusiyanın Rus olmayan xalqları arasında siyasi inkişaf və dəyişikliyi sürətləndirdi. Cəmiyyətin müxtəlif təbəqələrini əhatə edən ayrı-ayrı təşkilatlar, quruluş və komitələr quruldu.

1917-ci ilin mart ayında Transqafqaziyanın idarəçiliyi üçün keçici hökumət tərəfindən Transqafqaziya Xüsusi Komitəsi ("Особый Закафказский комитет"dir) adlanan bir orqan təşkil edildi. "Birlikdə İcra" kimi fəaliyyət göstərən komitə, Dövlət dumasında bölgənin milli qruplarını təmsil edən vəkillərdən ibarət idi. Ancaq bu quruluş başından etibarən Transqafqaziya millətlərini yetəri qədər təmsil edə bilmədiyinə və kənd təsərrüfatı problemlərinin həllinə nail ola bilmədiyinə görə xalqın etimadını qazanmadı, tənqidlərə məruz qaldı, nüfuzunu itirdi (1, 124). Oktyabr inqilabından sonra 1917-ci il noyabrın 11-də Tiflisdə toplanan Transqafqaziyanın siyasi və sosial təşkilatları Rusiyada hüquqi hökuməti təşkil edəcək, qurucu Məclisə seçki keçirilənədək bölgənin keçici hökuməti olacaq Transqafqaziya komissarlığını qurdular. Zaqafkom (Закафказский Комиссариат) adı ilə tanınan bu hakimiyyətin 11 üzvü vardır. 26-28 noyabrda qurucu məclisə seçkilər keçirilsə də, 1918-ci il yanvarın 5-də ilk toplantının sonunda Bolşeviklər tərəfindən yox edildi. Belə bir vəziyyət qarşısında Transqafqaziyalı üzvləri 1918-ci il noyabrın 10-da Transqafqaziya Seymini qurdular. Seym 9 Apreldə Transqafqaziyanı müstəqil, demokratik,

Federativ bir Respublika elan etdi, ilk hökümәti qurdu (2, 45-46). Ancaq Azәrbaycan, Gürcüstan vә Ermәnistan seym tәmsilçilәri arasında daxili vә xarici siyasәtlә bağlı bütün sahәlәrdә ciddi fikir ayrılıqları vardı. Seym o günün siyasi şәrtlәrindә keçici tәşkilat olmaqdan başqa bir işә yaramadı. Daxili çәkişmәlәr nәticәsindә 1918-ci il mart ayının 26-da Gürcüstanın özünün müstәqilliyini elan etmәsi ilә bu tәşkilat da dağıldı. Seymin azәrbaycanli millәt vәkillәri 27 mayda növbәdәnkәnar toplantı tәşkil edәrәk Azәrbaycan Milli Şurasının qurulması ilә bağlı qәrar qәbul etdilәr. Milli Şura 24 sәslә Azәrbaycanın Dövlәt Müstәqilliyinin elan edilmәsini bәyan etdi. Eyni gündә ermәnilәr Daşnaksütun partiyasının tәşkilatçılığıyla müstәqil Ermәnistan Respublikasını qurdular. Sovet Ordusu tәrәfindәn 1920-ci ilin aprel ayının 20-dә Azәrbaycan, 1920-ci ilin 29 noyabrında Ermәnistan vә 1921-ci ilin mart ayının 22-dә Gürcüstan hökumәti yıxılaraq, yerinә Sovet hökumәti tәsis edildi.

**Sovet Sosialist rejimi vә xüsusiyyәtlәri**

Fәqәt, 1917-ci ildәn sonra Rusiyada baş verәn Bolşevik inqilabı, Avropadakı siyasi hadisәlәrә böyük tәsir etdi (3, 14). 19-cu әsrin ortalarından başlayaraq iş vә maaşlardakı vәziyyәtin yaxşılaşdırılması hәmkarlar vasitәsilә siyasi partiyaların böyümәsinin bir nәticәsi olaraq, işçi sinfinin kapitalist cәmiyyәtlә bütünlәşmәsini xatırladan reformçu bir әnәnә ortaya çıxdı (4).

Sovet ideologiyasının tәmәli Marksizimә dayanır. Marksa görә tarixi müәyyәnlәşdirәn tәbәqә mübarizәsidir. Mübarizәdә yeni tәbәqә inqilabla hakim tәbәqәni devirәrәk, öz cәmiyyәtini (toplum) qurmaqdadır (5, 94). Belәcә, tarixi mәrhәlәlәr ibtidai, kölәlik, feodal, kapitalist mәrhәlәlәrini keçәrәk, sosializmә qәdәm qoyacaq.

**Türkiyә vә Türk azlıqlar**

Bu fikirlәrin hakim oduğu dövrdә isә Osmanlı Birinci Dünya Müharibәsindә ağır şәrtlәrlә üz-üzә gәldi. Ordu içәrisindә vәziyyәt ağırlaşmış, belә bir dövrdә Azәrbaycandan Türklәrә böyük miqdarda yardım getmişdir. Türkiyә İş Bankının qurulmasında bu yardımdan istifadә olunmuşdur. Hansı ki, bu mәlumatı müxtәlif çıxışları ilә Türkiyәnin keçmiş Mәdәniyyәt Naziri N.K.Zeybәk sәslәndirmişdir.

1919-1920-ci illәr әrzindә "Hәrbi Kommunizm" dövrü başlamışdır. Ticarәt sәrbәstliyinә icazә verildi. Kommunist Partiyası liderlәrinin çoxu kapitalizmә keçilәcәyindәn ehtiyatlanırdılar (6, 59). Bu dövrdә isә Türklәr Mondros müqavilәsinin ağır şәrtlәrindәn qurtulmuş, bu müqavilә Osmanlı İmperatorluğu baxımından bir son, Türkiyә baxımından isә bir başlanğıc sayılır.

1924-cü ildә Leninin ölümündәn sonra SSRİ-dә Stalin dövrü başlamışdır. Bu isә Türkiyәnin Milli Mәclisinin açılışından sonrakı tarixә vә ölkәdәki daxili çәkişmәlәrin olduğu bir zamana tәsadüf edirdi. Ancaq Türkiyә artıq Mondrosdan Lozan müqavilәsinә yol qәt etmişdir. Maraqlısı budur ki, SSRİ-dә Stalin, Türkiyәdә isә M.Kamal eyni addımları atmışlar, vergilәri azaltmışlar. Hәr iki dövlәtdә dә liderlәrin hakim olduqları bir zaman yaşanmışdır. (Baxın, Prof. Dr. Suna Kilç "Türk Devrim tarixi" kültür yayınları, 12-ci basqı,

215-250) SSRİ 1917-1939-cu illərdə bir "tərəfsizlik və müdaxilə etməmə siyasəti" apardı (7, s.21-22) 1938-ci ilin 11 noyabrından 1950-ciilədək Atatürkdən sonrakı zamanda, Türkiyədə **İsmət inonu** siyasəti hakim olmuşdur. Onun bir solçu olması da Türkəyinin SSRİ-dəki soydaşlarının işinə qarışmamaqda təsirli olmuşdur. Bu dövr ərzində də həmişə olduğu kimi Qərbi Azərbaycandan "1948-ci ildəki məcburi köç" heç Türkiyə ictimaiyyətində də işıqlandırılmamışdır. Stalinin İrəvan və Qarabağa erməniləri yerləşdirməsi sürətləndirilmişdir.

Stalinin ölümündən sonra Nikita Xruşşovun dövrü başlamışdır. Xruşşov sonrası isə Leonid İliç Brejnev rəhbərliyə gətirilmişdir. Bu dövrlərdə Türkiyə daha çox Amerika və Avropa istiqamətli siyasətində güclənmə taktikası aparmışdır. 1947-ci il mart ayının 17-də Türkiyə Dünya Ticarət Mərkəzinə və Dünya Bankına üzv oldu. (8, 480). SSRİ dövründə Qərbi azərbaycanlılara, Bolqarıstanda yaşayan türklərə tətbiq edilən sıxışdırma və soyqırım siyasəti tamamilə mətbuatdan gizli saxlanıldı. Bolqarıstan türkləri və Qərbi azərbaycanlılar "Bir medalın iki üzü" kimi eyni taleyi yaşadılar. 20-ci partiya qurultayında daxili və xarici siyasətdə dəyişikliyə gedilmiş, "Sülh içində birlikdə yaşama" qəbul edilmişdir. Xruşşovdan sonra Leonid Brejnev 1982-ci ilədək SSRİ-də tək Dövlət adamı oldu. Ona görə ki, Partiyanın birinci katibliyi vəzifəsinə də sahib idi (9, 255).

Qərbi Azərbaycanlılar İrəvan şəhərindəki Azərbaycan dilində institutların bağlanmasına etiraz etsələr də, nəinki tədbir görülmüş, hətta Qarabağda erməni dilində institutlar açılmışdır. Beləcə, Ermənistanda yaşayan azərbaycanlıların təhsil hüququ da əllərindən alınmışdır. Todor Jıvkov isə Bolqarıstanda yaşayan türklərə amansızlığını davam etdirmişdir. Eyni taktika Bolqarıstan türklərinə də tətbiq edilmiş və onların da təhsil və digər sahələrdəki hüquqları kobudcasına pozulmuşdur.

Kosovolu türklər də eyni acı həyatla baş-başa qalmış, istər Stalin, istərsə də digər liderlərin dünya siyasətindəki təsirlərinə baxmayaraq, eyni taleyi yaşamağa davam etmişlər.

Burada yaşayan türk varlığı Türkiyənin Kosovaya marağını artırmışdır. Halbuki, nə indiki Ermənistan, nə də Bolqarıstandakı Türklərə bu dərəcədə həssas yanaşma vaxtında və səmərəli olmamışdır. Kosovodakı Türk əhalisinin sayı 1948-ci ildə 1.315, 1953-cü ildə 14..15, 1961-ci ildə 25.764, 1971-ci ildə 12.244, 1981-ci ildə 12.513 olaraq müəyyən edilmişdir. 1953-cü ildəki gözlənilməz artış Türklərə mədəni və sosial haqlarının verilməsi istəyində böyük rol oynamışdır. Hətta bir çox Arnavut özünü "Türk" yazdırması ilə diqqəti çəkmişdir (10, 115). Ancaq Türk əhalisi getdikcə artmaqdadır, buna görə də Türk dünyası Qurultaylarında oradakı Türklər də diqqət mərkəzindədir.

1981-ci ildəki əhali sayımı Sırbıstandakı türklərin 2% olduğunu ortaya qoyduğu halda, Kosovodakı türklərin indiki sayı 50 min, türkcə danışıb bir-birini başa düşə bilənlərin sayı isə 200 min təxmin edilməkdədir. 1951-ci ildən bəri təhsildə, dildə, mədəniyyətdə xüsusi haqlara sahib olan Türklər 1969-cu

ildən indiyədək Priştinada həftədə 1 dəfə türkcə “Tan” qızeti çıxarırlar. Bununla yanaşı 2 aydan bir mədəniyyət jurnalı “Çığ” və aylıq “Quş” jurnalı türkcə çıxır. Kosovodakı türklər digər Balkan ölkələrinə baxdıqda, daha sərbəst olmuşlar. Ancaq Kosovo türkləri ilə Serb və Arnavut millətçiləri arasında daim gərginlik də müşahidə edilmişdir. “Rankoviç zamanındakı hakimiyyət Arnavutlarla birlikdə türklərə qarşı basqılar və sıxışdırmalar tətbiq etmişdir” (11, 124).

Araşdırmalar zamanı ortaya çıxır ki, SSRİ dövründə Qərbi Azərbaycanlılar dəfələrlə məcburi köç ilə üz-üzə qaldıqları halda, Türkiyə mətbuatı və elm adamlarının bu sahədə heç bir məlumatı olmamışıdr. Halbuki; Türk ziyalıları Arnavut millətçilərini “Türkləri assimiliyasiya etməklə” suçlamışlar. Türklərin işlərindən uzaqlaşdırılmasına etiraz etmişlər (17, 3). Hal-hazırda dünyanın müxtəlif ölkələrində yayınlanan mətbuat vasitələrində də ölkəmizin qarşılaşdığı haqsızlıqlar dilə gətirilə bilər, bu baxımdan təsiredici qüvvəyə çevrilə bilərlər.

Türkiyə, Yuqoslaviyanın torpaq bütünlüyü və toxunulmazlığını müdafiə etmiş və NATO-nun üzvü kimi onun qərarlarına da sadiq qalmışdır. Bu baxımdan, **Ankara Chedi – hərbi** sahələrindəki 17 F -16 hərbi təyyarəsini məlum hadisələrlə əlaqədar NATO-nun istifadəsinə vermişdir. Brüseldən gələn istək doğrultusunda **Çorlu, Bandırma və Balıkəsi** hərbi limanını NATO təyyarələrinə açmışdır (11, 125).

**Azərbaycan Dövlət Müstəqilliyinin bərpası. SSRİ-nin dağılması. Sovet İttifaqının dağılma prosesi**

1985-ci ildə M.S.Qorbaçovun Sovet İttifaq Kommunist Partiyası Mərkəzi komitəsinin 1-ci katibliyinə gətirilməsi və “yenidənqurma hərəkəti” başlanması ilə SSRİ-nin dağılma prosesi başladı. Başqa bir iqtisadi dəyişmə siyasətini ifadə edən “yenidənqurma”nın məqsədi iqtisadiyyatın tənzimlənməsi, modernləşdirilməsi, eləcə də daha təsirli hala gətirilməsi məqsədini daşıyırdı (14, 53). Daha sonra isə “açıqlıq” yaxud “aşkarlıq” sözü də əlavə edildi. “Yenidənqurma və aşkarlıq” məfhumu çox partiyalılığa keçiş, mətbuat azadlığı, özəl mülkiyyətin tanınması mövzularını da əhatə edirdi. Bu dəyişmə prosesi Sovet İttifaqının təməl prinsiplərinə zidd idi (14, 18).

**Rejim Dəyişməsinin Dinamikləri**

Qorbaçov vəzifəyə gəldiyi vaxt ölkə siyasi, iqtisadi təxribat baxımından ciddi sıxıntılar içindəydi. Sosial sahədə ciddi təxribat yaşanırdı. Rüşvətxorluq və içgiyə meyllilik artmışdı. Rüşvətxorluğun ortadan qaldırılması üçün 1982-ci ilin yanvar ayında SSRİ lideri Yuri Andropov tərəfindən başladılan mübarizə nəticə verməmişdir (16, 60-61). 1983-cü il hesablamalarına əsasən ölkədə “faydalı əməklə məşğul olmayan” 390 min adam vardı.Kiçik miqdarda rüşvət və məmurların özbaşınalığı böyük səviyyələrə çatmışdı.

1984-cü ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə 74 min anonim şikayət daxil olmuşdu (17, 491). Rəsmi hesablamalara görə iş gücünə görə SSRİ saniyədə Amerikadan 2 dəfə, kənd təsərrüfatında 4 dəfə geridəydi. “İkiqütblü dünya sistemində” silahlanma yarışında SSRİ Amerika ilə rəqabət edə bilmirdi. Bu və ya digər səbəblərdən 25 dekabr 1991-ci ildə

SSRİ rəsmən ortadan qalxdı.

**Azərbaycan Dövlət Müstəqilliyinin bərpası**

Azərbaycanda rejim əleyhinə mitinqlərin təkanverici qüvvəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan tərəfindən özünə birləşdirilməsi hərəkətləri oldu. Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ilin 7 iyulunda Azərbaycan Mərkəzi İdarəetmə Komitəsinin qərarı ilə qurulmuşdur. Bu ərazinin özəl statusa gətirilməsinin səbəbi Çar Rusiyasını siyasəti idi.1882-ci ildə bölgədəki əhalinin 35%-i erməni və 65%-i azərbaycanlı ikən, SSRİ dövründə erməni əhalisinin sayı artırılmışdır.

1987-ci ildən başlayaraq ermənilər Dağlıq Qarabağın indiki Ermənistana birləşməsini istəmişlər, ancaq Moskva bu istəyi rədd etmişdir. 15 iyun 1988-ci ildə Ermənistan Ali Soveti SSRİ qanununun 70-ci maddəsinə əsaslanaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün Azərbaycan və Moskvaya müraciət etdi, 70-ci maddə respublikaların self-determinasyon haqqına görə SSRİ-nin qurulduğunu ifadə edirdi. Bu məqsədlə Dağlıq Qarabağın Azərbaycanda SSRİ qanununun 78-ci maddəsinə görə, bu qərarı ləğv edir. Bu maddəyə görə bir respublikanın sərhədləri onun icazəsi olmadan dəyişdirilə bilməzdi.

1989-cu il 1 dekabrda Ermənistan Parlamentinin Dağlıq Qarabağı Ermənistana bağlaması ilə əlaqədar qərarı Azərbaycanın eyni ildə 6 dekabrda əks qərarla ermənilərin çıxardığı qərarı yox sayması gərginliyə son qoymadı.

1990-cı ildə Bakıda baş verən etirazlar zamanı, ermənilərdən olan vətəndaşların öldürülməsi bəhanə göstərilərək, 19-20 yanvarda Qızıl Ordu silahsız əhalini qətlə yetirdi.

1991-ci ilin fevral ayının 28-də Azərbaycan Parlamenti Dağlıq Qarabağ Muxtar statusunu ləğv etməsi haqqında qanun qəbul etdi (17, 121-132).

Başqa respublikalarda olduğu kimi, Azərbaycanda da dəyişikliklərə gedilməsi üçün yeni qanunlar qəbul edildi.

1991-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının qəbul etdiyi qanuna əsasən Azərbaycan Respublikası Milli Şurası quruldu (sonradan Milli Məclis olaraq dəyişdirildi). Qanunun 1-ci maddəsinə görə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin və Qanun Aktının qəbulu ilə Azərbaycanın tam Dövlət Müstəqilliyi əldə etməsinə nail olunur".

**ƏDƏBİYYAT**


1. Swietochowski T. Müsəlman Camaatdan Milli kimliyə Rus Azərbaycanı: 1905-1920 (Tərcüməçi Nuray Mərd) İstanbul: Bağlam yayını, 1988, 180 c.
2. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920 г). Баку: Элм, 1993, 45 с.
3. Armaoğlu F. 20-ci yüz il siyasi tarixi (1914-1990). 2 cilddə, II c. Ankara, 1994, 600 s.
4. Reformçu sosializmin 2 mənbəyi vardır. Birincisi, Robert Oven (1771-1858); Charles Fourier (1772-1837) və William Morris (1854-1896) kimi fikir adamlarıyla əlaqədar olan, Əxlaqi Sosializmin humnaist ənənəsi, ikincisi isə Eduar Bemshtein tərəfindən ortaya qoyulan Revizyonist Marksizmin şəkliydi. Heywood: 2006, 172 s.
5. Ebenstein W. Two Ways of life: The Kommunist Challengeto Democracy, Rinehard and Winston, NewYork, 1964, 194 s.
6. Илбин В.В., Панарин А.С., Ахиезер А.С. Реформы и контрреформы в России (Под

ред. V.V.İlbina), M.: МГУ, 1996, 59 s http:// www. audititorium.ru/books/668/p1.pdf
7. Sander O. Siyasi Tarix 1918-1990. İmgə kitabevi 3. Basqı 1991, 700 s.
8. Oran V. Türk Dış Politikası 2 cilddə, II c., Ankara 2002, 890 s.
9. Prof. Dr. Suna KILI. Türk Devrim Tarixi. 12-ci basqı, Kültür yayınları, ist.255s.
10. Bora Tanıl. Yeni Dünya Düzəninin 04 sahəsi. Bosna-Hersek. Ankara 2000, 115 s.
11. Yılmaz Pinar. Keçmişdən günümüzə Kosova Sorunu. İstanbul, 1995, 124 s.
12. Sait Burhan, Kosovoya Dönüşün Hekayəsi. Vardar, 24 aprel 1999, 124 s.
13. Gözübüyük. Ş. Sovetlərdə Siyasi Təşkilatların Quruluşu, İstanbul, 1998, 300 s.
14. Armaoğlu F. 20-ci Yüzil Siyasi tarixi. cilt II Ankara 1994, 600 s.
15. Caleotti M.: 1995, p 60-61
16. История Государство и права России. М.: Просвещение, 2002, 491 с.
17. F, 20-ci Yüzil Siyasi tarixi. cild II. Ankara 1994, 600 s.
18. Diplomatiya aləmi. Azərbaycan Respublikası, XİN- nin jurnalı №1, Sentyabr – dekabr 2002. 121-132 s.

## ТУРЕЦКОЕ МЕНЬШИНСТВО: С ПЕРИОДА НАЦИОНАЛЬНОЙ РЕСПУБЛИКИ ДО НАШИХ ДНЕЙ

**П.Г.САМЕДОВ**

### РЕЗЮМЕ

В статье говорится о сжатой политики, в которой сталкиваются западные азербайджанцы, болгарские турки и турки Косово с начала создания республиканского режима до восстановления независимости Азербайджана. А также автор останавливает внимание на особенностях Советского режима и роли Карабахских событий в период независимости.

**Ключевые слова:** республиканский режим, западные азербайджанцы, болгарские турки, турки Косово, Карабах, независимость

## TURKISH MINORITY: FROM THE PERIOD OF NATIONAL REPUBLIC TO OUR DAYS

**P.H.SAMADOV**

### SUMMARY

The article deals with the compressing policy facing Western Azerbaijanis, Bulgarian Turks and Kosovo Turks from the period of establishment of Republic regime to the restoration of state independence in Azerbaijan. The features of the Soviet Socialist regime and dynamics of regime changes, the role of Garabagh events in the independence period and restoration of independence are analyzed.

**Key words:** Republic regime, Western Azerbaijanis, Bulgarian Turks, Kosova Turks, Karabakh, Independence